# Ekologiyanın və ətraf mühitin qorunmasında vətəndaş həmrəyliyi

**Yeni tədqiqatlar göstərir ki, bəşəriyyət üçün ən böyük təhlükəni viruslar, yol-nəqliyyat hadisələri, təbiət kataklizmləri deyil, məhz ətraf mühitin çirklənməsindən törənən xəstəliklər kəsb edir. Hesablamalara görə, ekoloji problemlər səbəbindən dünyada ildə doqquz milyon nəfərdən çox adam ölür. Bu rəqəm QİÇS-dən, malyariyadan, vərəmdən ölənlərin sayını üç dəfə, avto-qəzalarda ölənlərin sayını altı dəfə, müharibədə və digər zorakılıq hərəkətlərində ölənlərin sayını isə on beş dəfə üstələyir. Ətraf mühitin çirklənməsi həm də iqtisadiyyata ziyan vurur. Çünki, bu səbəbdən dünyasını dəyişənlər, xəstəlik tapanlar əmək ehtiyatları sırasını tərk edirlər.**

Qeyd etməyə dəyər ki, son illər ekoloqların səyləri özünü doğrultmağa başlayıb. Artıq Dünya Bankının və Birləşmiş Millətlər Təşkilatının nümayəndələri ətraf mühitin çirklənməsinə qarşı yeni mübarizə istiqamətlərindən danışırlar. İndi alimlər karbon qazından yanacaq hasil etməyi, ekosistemin bərpası üçün süni torpaq yaratmağı, nüvə tullantılarından batareyalar istehsal etməyi təklif edirlər. Maliyyəçilərin inandıqları və hamını inandırmağa çalışdıqları "Ya sənaye ətraf mühiti çirkləndirir, ya da inkişafdan geri qalırsan" mifi də dağılıb. Bunun təsdiqi kimi, ABŞ-ın Ətraf Mühitin Mühafizəsi Departamentinin göstəriciləri çıxış edir: 1970-ci ildən bu yana ətraf mühitin çirklənməsinə qarşı mübarizə tədbirlərinə qoyulmuş hər bir dollar ABŞ xəzinəsinə otuz dollar gəlir gətirib. Benzinin tərkibindən qurğuşunun təcrid edilməsi isə yarım əsrdə on trilyon dollar fayda verib.

Azərbaycanda da ətraf mühitin mühafizəsi və ekoloji problemlər daim diqqət mərkəzindədir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə olduğu kimi, ekoloji problemlərin həlli, ətraf mühitin mühafizəsi, ekoloji tarazlığın bərpa edilməsi istiqamətində də mühüm işlər görülür. Ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa, meşələrin bərpa edilməsi və artırılmasına dair milli proqramlar, həmçinin Azərbaycanda hidrometeorologiyanın inkişafına dair Dövlət Proqramı uğurla yerinə yetirilir.

Beynəlxalq ekoloji proqramların həyata keçirilməsi, təbii sərvətlərin bərpasının təmin edilməsi və mühafizəsi, milli parkların təşkili və ekoloji şəbəkənin yaradılması istiqamətində görülən işlər də bu qəbildəndir.

Ölkəmizdə ətraf mühit problemlərinin həlli istiqamətində genişmiqyaslı işlərin görülməsi, ekoloji vəziyyətin yaxşılaşdırılmasına yönəlmiş dövlət siyasəti ölkənin dayanıqlı inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Ekoloji təhlükəsizliyin təmin olunması üçün ətraf mühitin çirklənməsinin minimuma endirilməsi və mühafizəsinin təkmilləşdirilməsi, indiki və gələcək nəsillərin tələbatını ödəmək məqsədilə təbii sərvətlərdən səmərəli istifadə, alternativ enerji mənbələrindən yararlanmaq və enerji effektivliyinə nail olmaq, qlobal ekoloji problemlər üzrə milli səviyyədə tələbatların qiymətləndirilməsi, həlli yollarının müəyyənləşdirilməsi, beynəlxalq təşkilatlarla əlaqələrin genişləndirilməsi ölkənin ekoloji siyasətinin əsas istiqamətləridir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) ətraf mühitin qorunması, təbiətdən, yeraltı sulardan, mineral xammal ehtiyatlarından və yerüstü sərvətlərdən səmərəli istifadə edilməsi, onların bərpası və mühafizəsi, bioloji müxtəlifliyin qorunub saxlanılması məqsədi ilə müxtəlif tədbirlər həyata keçirir. ETSN-nin ətraf mühitin mühafizəsini həyata keçirən qurumları tərəfindən ekoloji qanun pozuntuları aşkarlanır, onları törədənlərə qarşı cərimə protokolları tətbiq olunur, nöqsanların aradan qaldırılması üçün fiziki və hüquqi şəxslərə müddətli məcburi göstərişlər verilir.

Heydər Əliyev Fondunun ekologiyanın, ətraf mühitin qorunmasına xidmət edən "Hərəmiz bir ağac əkək" layihəsi də bu sahəyə böyük töhfələr verir. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2011-ci il iyulun 12-dən fəaliyyətə başlayan İDEA - Ətraf Mühitin Mühafizəsi üzrə Beynəlxalq Dialoq Kampaniyası çərçivəsində ölkəmizdə ətraf mühitin qorunması sahəsində görülən işlər Azərbaycanda ekoloji problemlərə verilən önəmin göstəricisidir.



Qloballaşma prizmasından yanaşanda ekologiyanın qorunması üçün təkcə dövlətlərin deyil, beynəlxalq təşkilatların deyil, dünyanın hər bir sakininin üzərinə vəzifə düşür. Amma əlbəttə ki, planeti ekoloji bəlalardan xilas etmək üçün könüllü olaraq dünyanın o başına getməyə dəyməz. Elə öz evimizin içində, şəhərimizi, ölkəmizi tərk etmədən də bəzi qaydalara əməl etməklə ətraf mühitin mühafizəsi üçün çox şey edə bilərik:

- Məsələn, iqlim dəyişmələrinə təsirlərin azaldılması istiqamətində elektrik enerjisi istehsalında sərf olunan şərti yanacaq vahidinin ildən-ilə azaldılması və s. kimi tədbirlərə hər bir vətəndaş dəstək verə bilər. Televizor, DVD-pleyer, kompyuter kimi cihazlar yuxu rejimində belə enerji sərf edirlər. "Off" düyməsini basmağı unutmayın, yaxud da cihazları taxmaq üçün enerji buraxılışını özü tənzimləyən taymerli rozetkalar tətbiq edin. Adapterlərin əksəriyyəti şəbəkəyə taxılı qalanda, onlara cihaz qoşulmadığı halda belə enerji "yeyirlər". Təbii işıq mənbəyindən istifadə edin. Otaqların yaxşı işıqlandırılması elektrik enrjisinə qənaətin ən optimal yoludur. Divarları tünd rəngləməyin. Pəncərələrin qarşısını mebellə örtüb özünüzü günəş işığından məhrum etməyin. Çılçıraqların, elektrik şamlarının çox olmasının zərəri yoxdur. Ehtimal böyükdür ki, onlar çox olanda günün saatlarına uyğun seçim edib ən lazımlısını istifadə edəcəksiniz. Köhnə tip dukovkalar, soyuducular da artıq enerji aparır, onları müasirləri ilə əvəzləyin. Buxxananı isə qardan tez-tez təmizləyin. Evdə qızdırıcı cihazları şəbəkəyə qoşmazdan əvvəl üst geyim istisna olmaqla, isti paltar geyinməyə çalışın. Bu yetməsə, qızdırıcı cihazlardan istifadə edin. Otaq temperaturunu 1o C artıranda elektrik enerjisinin istehlakı 10 % çoxalır.
- Azərbaycanda su ehtiyatları məhduddur. Hamam vannasında və duşun altında xəyala dalmaq vərdişinizə xəyanət etsəniz, gün ərzində xeyli suya qənaət etmiş olarsınız. Paltarı əllə deyil, paltaryuyan maşınla yuyun. Dişlərinizi fırça ilə təmizləyəndə də pauza verin, kranı daim açıq saxlamayın. Santexnikanın həmişə qaydada olmasına diqqət yetirin ki, izafi su itkisinə yol verməyəsiniz.
- Ərzaq bazarında yerli istehsalçıların mallarına üstünlük verin. İdxal malları super-marketlərimizə gəlib çatınca uzun məsafə qət edirlər. Onları daşıyan təyyarə, gəmi və yük maşınları ekologiyaya zərərli qazlar buraxır, nəqliyyat xərclərini də biz ödəyirik. Ümumiyyətlə, bütün növ malların alınmasında, xidmətlərin istifadəsində ekologiyaya zərər vurmamağa çalışdıqları sizə məlum olan şirkətlərə fayda verməyə, onların fəaliyyətini stimullaşdırmağa çalışın ki, rəqabətdə ayaqda qala bilsinlər.
- Həftənin bəzi günlərində vegetarian olun. Yadda saxlayın: Bəslənən heyvanın çəkisinin yarım kiloqram artımına 10 ton su sərf olunur. Bu, eyni çəkidə kartofun yetişdirilməsinə işlənən suyun miqdarından 20 dəfə çoxdur.
- Plastik paketlərdən imtina edin. Dünyada il ərzində 1 milyard belə paket istifadə olunur. Tədqiqatlar göstərir ki, polietilen cisimciklərin dünya okeanına tullanmış kütləsi artıq canlıların qida zəncirini pozmaqdadır. Odur ki, bazara-dükana gedərkən özünüzlə səbət götürün. İstifadə olunmuş batareyaları digər məişət tullantıları ilə bir yerdə atmayın. Onların tərkibində müxtəlif ağır metallar, o cümlədən, civə, qurğuşun, gümüş, nikel, sink, litium vardır ki, düşdüyü torpağı zəhərləyir.
- Bəzi günlər avtomobil barədə unudun. Yaz və yay fəsillərində piyada və velosipedlə gəzinti həm sağlamlığınıza, həm yaşadığınız şəhəri yaxşı tanımağınıza, həm də ekologiyaya xeyirlidir. Hibrid avtomobil alın. Benzin və elektrik mühərriklərinin birgə istifadəsi benzinin üçdə ikisini qənaət eləməyə imkan verəcək ki, bu da Sizin cibinizə də müsbət təsir edəcək. Dünyada elektromobillərin istifadəsinə daha çox üstünlük verilir. Azərbaycanda bundan ötrü müvafiq infrastrukturun qurulmasına diqqət artırılmalıdır.
- *Ailə qurun. Miçiqan Universitetinin tədqiqatçıları hesablamışlar ki, tənha adam dördnəfərlik ailənin bir üzvünə nisbətən 38 % çox qida, 55 % artıq elektrik enerjisi, 61 % çox qaz, 42 % çox qablaşdırma materialı istehlak edir.*

**Söz yox, nə qədər ki, ağaclar qanunsuz şəkildə qırılaraq yerində villalar tikilir, obyektlər inşa olunur, "Qırmızı Kitab"a düşmüş canlılar ovlanır, məişət tullantılarını sortlara ayırmaqdan danışmaq bəlkə də gülünc görünə bilər. Ancaq müşahidələr göstərir ki, bu məqalədə yekun olaraq sadalanan praktiki məsləhətlər yaxın vaxtda yetişməkdə olan nəslin qarşısında həyati vacib ciddi məsələ kimi duracaq. Təsadüfi deyildir ki, ETSN gənclərin ətraf mühit sahəsində bilik və bacarıqlarının artırılması, gənc nəslin ekoloji maarifləndirilməsi və ictimaiyyətin ətraf mühitin birgə mühafizəsinə cəlb olunması məqsədi ilə ali və orta ixtisas, orta təhsil müəssisələrinin tələbə, şagird və müəllim kollektivləri ilə görüşlər keçirir. Bu görüşlərdə dövlətin ekologiya sahəsində həyata keçirdiyi uğurlu siyasət və bu istiqamətdə gənc nəslin fəal rolundan danışılır, gənclərin ətraf mühit sahəsində bilik və bacarıqlarının artırılmasının zəruriliyi diqqətə çatdırılır. Odur ki, ən azından, övladlarımızı öyrətmək, onlara nümunə göstərmək üçün ətraf məhz özümüzdən başlamalı, ətraf mühitin qorunmasına xidmət edən qaydalara, məsləhətlərə ilk növbədə özümüz əməl etməliyik.**

**Sübhan Mahmudlu**

***Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçündür***